# Adı İpək olsa da...

- İpək xanım, qəzetdəki elanı görmüsünüz?

- Xeyr, hansı elanı?

- Həyat yoldaşınızın itkin düşməsi ilə bağlı məlumat paylaşılıb.

"Yer sanki ayağımın altından qaçdı, hər yer zülmətə büründü. Bilmədim özümü düşünüm, üç övladımı, yoxsa İsrailin valideynlərini", - deyir İpək Məmmədova.






## "Üç oğul böyüdürəm. Mən sonra onların üzünə necə dik baxaram"

Adı İpək olsa da, həyatı ipək kimi keçməyib. Qərbi Azərbaycanın Amasya rayonunda böyüyən İpək Məmmədzadə 1984-cü ildə qonşu Çivili kəndində yaşayan, yenicə əsgərlikdən gələn İsrail Məmmədov ilə ailə həyatı qurub. Evləndikdən sonra elə o kənddə yaşayıb, iki övlad sahibi olublar. Bir neçə il sonra, 1987-1988-ci illərdə vəziyyət qəlizləşməyə başlayıb. Ermənilər azərbaycanlıları doğulub, böyüyüb, yaşadıqları kəndlərindən didərgin salmağa başlayıblar. Hər gün azərbaycanlılar yaşayan kəndlərə hücum edib, evlərini tərketmə göstərişi veriblər. Çivili kəndinin sakinlərinin bir hissəsi getsə də, maddi imkanı olmayanlar çarəsizlik içində yol tapmağa çalışıblar. Bu zaman dadlarına İsrail yetişib. Uşaqlıqdan qoçaqlığı, mərdliyi, iti zəkası ilə seçilən İsrail tez Gürcüstana gedərək 4-5 yük maşını gətirib, sürücülərə də deyib ki, onlara pul yox, əvəzində kimin nəyə gücü çatırsa, toyuq-cücə, qoyun-quzu verəcəklər.

Kənddən köç edən əhalinin böyük bir qismi Zaqatalaya gələrək burada məskunlaşıb. İpəyin üçüncü övladı da burada dünyaya gəlib. İsrailgilin ailəsi orada qərar tuta bilməyib 1989-cu ildə Bakıya gəliblər. Şəhərdə ikimərtəbəli ev alıb, ailənin 30-a yaxın üzvü burada yaşamağa başlayıblar.

Bir müddət sonra ancaq özlərinə aid olan kiçik, təmirsiz, hətta pəncərə şüşələri belə olmayan ev alıblar. İpək xanım deyir ki, İsrail bu evi alanda o qədər sevincli, xoşbəxt idi ki, evin heç biri mənfi cəhəti gözünə görünmürdü. Maddi vəziyyətləri ağır olduğu üçün pəncərələrə şüşə belə ala bilməyib, mismarla taxta vurublar.

Yeni evlərində xoşbəxtlikləri uzun çəkməyib. 1990-cı il yanvarın 19-dan 20-sinə keçən gecə sovet ordusunun Bakıya girdiyini eşidən kimi İsrail şəhərin mərkəzinə yollanıb. Üç gün ərzində ondan xəbər alan olmayıb. Evə gələndə isə üstü-başı qan içində imiş. Sən demə, bu günlər ərzində yaralıları, şəhidləri daşıyırlarmış...

1991-ci il milli ordu yarananda İsrail birincilər sırasında könüllülər taboruna yazılıb. Üç uşağı olduğuna görə döyüşlərə aparmaq istəməyiblər. İpək xanım deyir ki, o da, İsrailin ata-anası da onu buraxmağa qorxublar. Təkidlərdən əsəbiləşən İsrail deyib ki, "mənə heç nə Vətəndən önəmli deyil. Nə qaçası deyiləm, nə də gizlənəsi. Üç oğul böyüdürəm. Mən sonra onların üzünə necə dik baxaram"...

Noyabrın axırları sonuncu dəfə ailəsi ilə vidalaşıb, üräyinə damıbmış kimi övladlarını möhkəm-möhkəm bağrına basıb, silahdaşları ilə birlikdə Qarabağa yollanıb. "O vaxtı əlaqə saxlamaq indiki kimi rahat deyildi", - söyləyir İpək xanım: "Dekabrın 28-i idi. Bizdə telefon yox idi deyə, atamgilə zəng edib deyib ki, İpəyə xəbər göndərin gəlsin, zəng edəcəm. Gedib saatlarla gözlədim. Zəng edəndə dedim ki, İsrail, balaca oğlumuz çox xəstədir, həkimə apara bilmirəm, uşağın vəziyyəti yaxşı deyil. Dedi ki, narahat olma, dekabrın 31-i gecə 12-də evdəyəm".

Bəlkə də həyatında ilk dəfə olaraq vədəsinə əməl etməyib... Elə həmin gecə sonuncu döyüşünə gedib...

## 34 il keçsə də, gözü hələ qapıdadır

İpək xanım həyat yoldaşının itkin xəbərini təsadüfən qəzetdən öyrənib: "Məktəbdə işləyirdim. Bir gün tanış müəllimə mənə yaxınlaşıb dedi ki, İpək xanım, qəzetdəki elandan xəbərin var? Dedim ki, yox. Dedi, İsrail və iki yoldaşı itkin düşüb. Tez qəzeti götürüb evə getdim, İsrailin ailəsinə dedim. Hər yerə müraciət elədik, gördüm deyən olmadı. Heç elanın kim tərəfindən verildiyini də öyrənə bilmədik. O gün bu gündür itkindir"...

Elanın dərc olunmasından bir neçə ay sonra İsrailin əsirlikdə olan əmisi oğlu Əbdüləzim Məmmədov erməni əsirləri ilə dəyişdirilərək evinə qayıdıb. Evə gələn kimi ilk sualı "İsrail hanı?" olub. Sən demə, Əbdüləzimlə İsrail eyni tağımda döyüşüblərmiş. Dekabrın 28-də Xankəndinin Kərkicahan qəsəbəsi ətrafındakı döyüşlərdə də bərabər olublar. Taqım ermənilərə qarşı 6 saat müqavimət göstərib. Qeyri-bərabər döyüşdə əsgərlərin əksəriyyəti şəhid olub, silah və sursatları bitdiyi üçün tam mühasirəyə alınmış, aralarında İsrail və Əbdüləzimin olduğu 9 döyüşçü isə əsir götürülərək Xankəndidə yerləşən təcridxanaya aparılıb. Döyüş zamanı ağır yaralanan İsraili və döyüş yoldaşlarını ayrı-ayrı kameralara salıb, dözülməz işgəncələr verib, ac-susuz, ayaqyalın soyuq və qaranlıq yerdə saxlayıblar. Əbdüləzim əmisi oğlunun vəziyyəti ilə bağlı günlərlə sual verib, təkid edəndən sonra ona deyiblər ki, İsraili əsirlərlə dəyişdiriblər.

"İsrail itkin düşəndən sonra aylarla, illərlə özümə yer tapmadım. Şəhid olduğunu bilsəydim, məzarı olsaydı, bəlkə bir müddət ağlayıb, sonra toxtaqlıq tapıb, bu dərdlə yaşamağa öyrəşəcəkdim. 34 il keçsə də, hələ də gözüm qapıdadır. Həmin evdə yaşayırıq, birlikdə alıb doyunca otura bilmədiyimiz evdə. Bir gün bu qapıdan içəri girəcəyinə inanıram. Çox çətin idi. Bir yandan onun yoxluğu, digər yandan ikisi bağçaya gedən 3 uşaq. Şəhəri tanımırdım. Çörək almağa gedəndə yola daş qoyurdum ki, geri qayıdıb tapa bilim. Bir qarnı ac, bir qarnı tox yaşayırdıq. Bayramlarda gələn bayram sovqatı ilə dolanırdıq. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra güzəranımız yaxşılaşmağa başladı. Son illər Prezident təqaüdü də alıram. İndi, şükür, heç nəyə ehtiyacımız yoxdur", - deyir İpək xanım.

İtkin düşəndə 28 yaşı olan İsrailin indi beş nəvəsi var. İlk nəvəsi babasının adını daşıyır. İpək xanım deyir: "O, dodağını qaçırıb gülən də elə bil İsraili görürəm..."



*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 8 mart (№52).- S.10.